Məlikova-Qurbanova Elfira Hacıbaba qızı,

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, muzeyşünas alim

Email: elfiramelikova@gmail.com

Milli Azərbaycan Tarixi Muzeyində professional muzey işinin formalaşmasında Akademik Nailə Vəlixanlının rolu.

> "Keçmişi dərk etmək, xalqın maariflənməsinə fəal kömək göstərmək, onun özünəməxsus qədim tarixini təbliğ etmək, mənəvi və siyasi inkişafının mərhələlərini aşkarlaşdırmaq, tarixi proseslərin qarşılıqlı əlaqəsini və ənənələrin nəsildən-nəsilə ötürüldüyünü başa salmaq, cəmiyyətdə baş verən dəyişiklikləri dəyərincə qiymətləndirmək – bütün bu işlərin görülməsində Azərbaycan Tarixi Muzeyinin əhəmiyyəti olduqça böyükdür."
>
> Akademik Nailə Vəlixanlı (Vəlixanlı; 2000,s. 3).

Açar sözlər: muzey təhsili, elmi tədqiqat işi, muzey arxivi, professional muzey işçisi

Böyük şəxsiyyətlərin yaradıcılığı daim diqqət mərkəzindədir. Lakin, sanki bir əlçatmaz dərinlik, keçilməsi mümkün olmayan ümmandır.

"Azərbaycanın mədəni irsinin qorunub saxlanılması, nümayiş etdirilməsi, tədqiq və təbliği, bütün dünyaya çatdırılması missiyası dövlətimiz tərəfindən yüksək səviyyədə həyata keçirilir. Bu işdə elmi-tədqiqat, mədəniyyət və incəsənət müəssisələrinin rolu danılmazdır. Tarixi abidələri qoruyan, təbliğ edən muzeylər məxsusiliyi ilə fərqlənir. Muzeylərin cəmiyyətlə işləmə bacarığı bir sıra tələblərin yerinə yetirilməsi ilə həyata keçirilir. Milli-mənəvi dəyərlərimizin toplanılması, qorunması, öyrənilməsi və təbliği, müasir tələblərə uyğunlaşdırılması muzey işində mühüm mərhələ olduğu kimi, dünya və mədəniyyət sərvətlərinə qovuşmağa yönəldilən təhsil sisteminin inkişaf etdirilməsi, uşaqların və yeniyetmələrin estetik tərbiyəsinə, mədəni inkişafına qayğının göstərilməsi mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsip və vəzifələrindəndir. Daim araşdırma aparılaraq yeni ideyaların önə çəkilməsi problemin həlli üçün çox azdır. Muzey işinə tarixi baxış mütləq tələb olunur. Dünya muzeylərinin tarixi ilə birgə muzey işinin tarixi də öyrənilməlidir. Muzeylərin maarifçilik prosesinin qarşısında elmi təhsil, elmi araşdırma durur." (Məlikova (Qurbanova); 2022, s. 339).

Məlum olduğu kimi təhsil milli dəyərin əsas komponentlərindən biridir. Muzeyşünaslıq muzey tarixini, nəzəriyyəsini, muzey mənbəşünaslığını bütövlükdə təhlil edən və tətbiq edən yeganə elmdir. Bu baxımdan muzey yaradıcılığını heç bir sərhəd olmadan öyrənmək istəyən bu elmə müraciət edə bilər. Lakin, vətən tarixinin tərkib hissəsi olan muzeylərin yaradıcılıq tarixini öyrənmədən muzeyşünaslıq elminin məqsəv və vəzifələrini anlamaq çətindir. Məhz Akademik Nailə Vəlixanlının muzeyi idarə etmə fəaliyyətinin mərkəzində muzey fəaliyyətinin və muzeyşünaslığın fasiləsiz olaraq araşdırılması və tədqiqatı durur.

Professional muzey işi geniş təhlillər tələb edən problemdir. Müasir dövrümüzdə “muzey işi” bir neçə aspektdən təhlil edilir. Muzey fəaliyyətini müasir cəmiyyətin tələblərinə uyğunlaşdırmaq problemi daimi olaraq muzeyin müzakirə obyektini təşkil edir. Klassik muzey işi spesifikliyini hələ də qoruyub saxlayır. Məhz müasir dövürdə Milli Azərbaycan Tarixi Muzeyinin fəaliyyətinin professional şəkildə idarə edilməsində Akademik Nailə Vəlixanlının rolu böyükdür.

Azərbaycanda muzey yaradıcılığı 100 ili ötür. Fərqli tarixi dövrü yaşayan və gözlənilməz hadisələrlə üz-üzə gələn muzeylərimiz qocaman və müdrüklük dövrünü yaşayır. Yüz ildən artıq müddətdə fəaliyyət göstərən Milli Azərbaycan Tarixi Muzeyi haqqında çox sayda, məlumatlandırıcı xarakter daşıyan əsərlər yazılmışdır. Bu əsərlərdə baş muzeyimiz olan Azərbaycanın Tarixi muzeyinin əsasının, təməlinin dərinliyi nəzərə çarpır. Muzeyin əsası elmi potensialı güclü olan şəxslər tərəfindən qoyulmuşdur.

Bir sıra faktlarlarla irəlilədikdə doğma Azərbaycan Tarixi muzeyimizin fəaliyyətə başladığı ilk günlərdən muzey işində bir neçə istiqamətin paralel şəkildə inkişafını görürük. Əlbətdə muzey üçün əsas problem kolleksiyanın toplanması olmuşdur. Məhz muzeyin kolleksiyası gələcəkdə digər muzeylərin yaradılmasına kömək etmişdir. Belə ki, 1920-ci illərdən sonra muzeyin (Dövlət Tarixi muzeyi) fondunun zənginləşdirilməsi sahəsində aparılan işlər daha da geniş şəkil almışdır. (Məlikova (Qurbanova); 2021,s. 108)

Azərbaycan Dövlət Arxivində Dövlət muzeyinin başlanğıc fəaliyyəti ilə əlaqədar verilən məlumatlara görə: “1921-ci ilin sonundan 1922-ci ilin yarısına qədər, elmi, mədəni-maarif işini inkişaf etdirən muzey kütləvi mühazirələr, məşğələlər, ekskursiyalar keçirmiş, 1922-ci ildə Dövlət Muzeyini 12 mindən çox tamaşaçı ziyarət etmişdir. Onların üçdə biri muzeyə kollektiv şəkildə gəlmişdir” (379, д. 250, лл. 160-165).

Milli Azərbaycan Tarixi Muzeyinin təhsil müəssisələri ilə yaratdığı təmas, muzey tərəfindən aparılan təbliğat əbəs deyildi. M.A.Qazıyev “Azərbaycanda muzey işinin tarixinə dair” kitabında yazır: “1921-1922-ci tədris illərində Bakı Universiteti tələbələri üçün Dövlət Muzeyində təcrübə saatları keçirilirdi. Bu dərslər tədris-köməkçisi müəssisələrinin şöbəsinin nəzdində keçirilirdi...Təhsil müəssisələrinə yardımı davam etdirən muzey, dərslərin keçirilməsi üçün onları əyani vəsaitlərlə təmin edirdi...” (Казиев; с.26).

Muzeyin ilk dövrdən İnstitutlaşdırılması artıq 1924-cü ildə Azərbaycan Dövlət Muzeyinin fundamental şəkildə qurulduğu dövrdə, muzey işçiləri qarşısında həll edilməsi mühüm olan məsələlər qoyurdu. Muzeydə elmi-təşkilatı və elmi-maarif yaradıcılıq işlərinə yeni baxış formalaşırdı.1924-cü ildə Bakıda keçirilən I Ümumazərbaycan Diyarşünaslıq Qurultayında iştirak edən alimlər, diyarşünaslar, eyni zamanda muzey işçilərinin qərarı ilə Azərbaycan Dövlət Muzeyinin statusunu yüksək tutaraq yaradıcılığının planlaşdırılması üçün altı bənd də əlavə edilmişlər:

- Bütün alimlər, elmi müəssisələr, diyarşünaslıq təşkilatları və Dövlət Muzeyi ilə ən sıx yaradıcılıq əlaqələrində olmalıdır;
- ASSR-nin tarixinin, etnoqrafiyanın, biologiyasının öyrənilməsi məqsədilə rəhbər təşkilatlar, diyarşünaslıq təşkilatları və alimlər tərəfində ekspedisiyalar təşkil edilərkən mütləq bir yerin Azərbaycan Dövlət Muzeyi üçün ayrılması nəzərdə tutulsun;
- Azərbaycan Dövlət Muzeyinin düzgün və məqsədyönlü istiqamətdə işinin aparılması məqsədilə (materialların toplanması, ekspedisiyaların keçirilməsi) imkan yaradılmalıdır;

- Azərbaycan Dövlət və Xalq Təsərrüfatı muzeyləri arasında paralellik (yəni eynilik) işindən uzaq olmaq üçün hər birinin məqsəd və əhəmiyyətinə görə tez bir zamanda müəyyən iş planı işlənib hazırlanmalıdır;
- Türk millətindən olan Dövlət Muzeyinin əməkdaşlarının muzey işində muzey işində təkmilləşməsi üçün çox böyük əhəmiyyət kəsb edərək mərkəzi muzeylərə ezam edilməsi (Sovet dönəmində Mərkəzi muzeylər dedikdə Rusiyanın Moskva və Leninqrad (hazırda Sankt-Peterburq) şəhərləri nəzərdə tutulurdu);
- Pedaqoji fakültə və Pedaqoji institutların və ümumiyyətlə Ali Təhsil Məktəbləri tələbələrinin muzeylərdə təcrübədə muzey işi ilə tanış olmaq üçün ezam edilməsinin mütləq olmasının əsas götürülməsi;

Xalq Komissarları şurası 31 mart 1936-cı ildə "Dövlət muzeyinin yenidən qurulması haqqında" qərar qəbul etdi. Bu qərara əsasən Dövlət muzeyi Azərbaycan Tarixi Muzeyinə çevrildi. Elə həmin ildən muzey yenicə təşkil olunmuş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının tərkibinə daxil oldu. Beləliklə yeni sistem tarix profilli muzeylər şəbəkəsini genişləndirdi.

Akademik Nailə Vəlixanlı muzeyə rəhbərlik etdiyi iyirmi beş il ərzində bu tarixi faktları dərindən araşdırmışdır. Muzeydə çalışan işçilərin vəzifəsindən asılı olmayaraq onların diqqətini davamlı olaraq arxiv faktlarına istiqamətləndirməyi bacarmışdır.

İyirmi beş ildir ki, Milli Azərbaycan Tarixi muzeyində Akademik Nailə Vəlixanlının rəhbərliyi ilə təkcə muzey kadırları deyil, eyni zamanda elmi kadırlar da hazırlanır. Məhz ona görə də Milli Azərbaycan Tarixi muzeyində aparılan tədqiqatlar fundamentallığı ilə fərqlənir. Akademik N.Vəlixanlı yazır:"...Milli Azərbaycan Tarixi muzeyinin əməkdaşları Azərbaycan Tarixinin bütün dövrlərinə aid maddi mədəniyyət abidələrinin toplanması, mühafizəsi, tədqiqi, nəşri, onların ekspozisiya və sərgilər vasitəsilə nümayişi və təbliği istiqamətində çalışırlar." (Vəlixanlı, 2020; s.491).

Akademik Nailə Vəlixanlının redaktorluğu ilə 2000-ci ildən başlayaraq "Azərbaycan Tarixi Muzeyi" (MATM 80 illiyi ilə əlaqədar ilk jurnal çapdan çıxmışdır) başlığı altında (hazırda MATM) çap edilən elmi əsərlər toplusu təkcə Azərbaycan tarixinə deyil, muzeyşünaslıq elminə də böyük tövhələr verir. Muzeydə böyük araşdırmaların aparılması nəticəsində (demək olar ki, əksəriyyəti muzeyin fondları, fond şöbələri, muzey arxivində olan dəyərli materiallardan bəhrələnir) yeni, məlumatlar üzə çıxır. Fondun hər bir əşyası tədqiqat obyektinə çevrilir. Eyni zamanda hər bir məqalədə istinad edilən ədəbiyyatlar elmi maarifləndirmə xarakteri daşıyır. Muzeydə hər il keçirilən tədbirlər içərisində elmi simpozium, elmi konfranslar, elmi-seminarlara xüsusi yer verilir. Elmi toplunun sonunda hesabat şəklində təqdim edilən muzey fəaliyyəti böyük elmi bazadır və arxivləşəcək məlumatdır.

Təsadüfü deyil ki, Azərbaycanda ilk muzeyşünaslıq üzrə namizədlik dissertasiyasının müdafiəsi (1999) məhz Milli Tarix muzeyində keçirilmiş və müdafiə şurasının sədri akademik Nailə Vəlixanli seçilmişdir. Muzey yaradıcılığını ciddi dəyərləndirən N.Vəlixanlı tarixi yaddaşı qoruyub saxlayaraq, yeniliyə çığır açan muzey rəhbəridir. Milli Azərbaycan Tarixi Muzeyində muzeyşünas magistrlərin dissertasiya işlərinin yazılması və tədqiqatların aparılması üçün böyük şərait yaradılır. Aidiyyəti şöbələrin əməkdaşları elmə yeni gələn gənclərə hərtərəfli yardım edir. Bu proses professional muzey təhsilinin nəticəsidir.

2013-cü ildən muzeydə fəaliyyətə başlamış "H.Z.Tağıyev klubu"nun üzvləri hər il muzeyin "Elmi maarifləndirmə və ekskursiyalar" və "Xarici əlaqələr və elmi kütləvi iş"

şöbələrinin əməkdaşları tərəfindən məşğələlər keçirilir, kluba orta və ali məktəblərdən yeni şagird və tələbə üzvlər cəlb edilir.

Muzeyin direktoru, akademik Nailə xanım Vəlixanlı və onun rəhbərlik etdiyi Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Azərbaycan tarixinə aid olan böyük elmi araşdırmalar aparır və möhtəşəm layihələr hazırlayırlar. Akademik Nailə xanım Vəlixanlı klassik muzey fəaliyyətini qorumaqla yanaşı, yeni, kreativ fikirlərə də sahibdir. N.Vəlixanlı gənclərə yol göstərərək onların fikirlərini dinləyir, kömək edir. Əməkdaşların elmi potensialının gücləndirilməsi üçün daim fikir mübadiləsinə önəm verir. Muzeydə müxtəlif dövrlərdə işə qəbul edilən şəxslər arasında böyük və sağlam əməkdaşlıq formalaşmışdır.

Muzeydə bu istiqamətdə aparılan növbəti maarifləndirici iş "Gənc muzeyşünaslar və muzeysevərlər" klubunun açılması oldu. Muzeyin tarixi ənənlərini qoruyan, muzeyin fəaliyyətinə ciddi yanaşan Nailə Vəlixanlı (2018) gənclərin toplaşacağı klubun açılışını etmişdir. "Gənc muzeyşünaslar və muzeysevərlər" klubunun yaradılmasının məqsədi maddi-mədəni abidələrimizin qoruyucusu olan muzeylər haqqında məlumatı, muzey işi və onun fəaliyyət istiqamətlərini gənc muzeyşünaslara, muzeysevərlərə çatdırmaqdan ibarətdir.

2018-ci ildə "Gənc muzeyşünaslar və muzeysevərlər" klubunu Muzeyin direktoru, akademik Nailə Vəlixanlı açaraq klubun yaradılmasının əhəmiyyətindən və Azərbaycanda muzey işinin inkişafından bəhs edərək demişdir: Müasir cəmiyyətdə muzeylərin sosial-mədəni rolunun əhəmiyyətli dərəcədə yüksəlməsi onları dünyada mədəni proseslərin fəal iştirakçısına çevirir. Müasir dövrdə Muzey qloballaşmanın neqativ nəticələrinə qarşı dura bilən, tarixi xatirələri öz divarları arasında saxlamağa qadir olan, mədəni irsi qoruyan mədəniyyət ocağı hesab edilir.Gələcəkdə muzeylərin ixtisaslı kadrlarla təmin edilməsi, eləcə də ölkəmizdə muzey işinin dünya standartlarına uyğunlaşdırılması məqsədilə onun milli-nəzəri strategiyasının hazırlanmasında hələ qarşıda mühüm vəzifələr durur". Açılışda Nailə xanım gənc nəslə, muzeysevərlərə bu klubun tədbirlərindən maksimum faydalanmalarını tövsiyyə etmişdir. Azərbaycanın baş muzeyi olan Milli Azərbaycan Tarixi Muzeyi formalaşdığı illərdən muzey işinə göstərilən diqqət çox ciddi tələblərlə həyata keçirilir. Muzey yaradıcılığından göründüyü kimi Akademik Nailə Vəlixanlı eyni zamanda Milli tariximizin öyrənilməyən və ya çox az tədqiq edilən tərəflərini belə professional elmi araşdırma obyektinə çevirmişdir.

İstifadə edilən ədəbiyyat:

1. Azərbaycan Tarixi Muzeyi – 80, Bakı, "Elm", 2001, 352 səh.

2.Milli Azərbaycan Tarixi Muzeyi. "Elm və təhsil", Bakı.2016. səh.505

3.Milli Azərbaycan Tarixi Muzeyi. "Elm", Bakı.2017. səh.432

4.Milli Azərbaycan Tarixi Muzeyi. Elmi əsərlər toplusu. "Elm", Bakı.2018.səh.336

5.Milli Azərbaycan Tarixi Muzeyi – 2020. Bakı. "Azpoliqraf". 2020, 504 s.

6.Məlikova (Qurbanova). Azərbaycan muzeyşünaslığı (Monoqrafiya). I cild, Bakı, "Elm", 2021, 232 səh.

7.Казиев М.А. Из истории музейного дела в Азербайджана. – Известия АН Аз ССР, CON, 1960, № 2.

8.ГААР. Ф. 411, оп.28.

Melikova – Qurbanova Elfira Hadjibaba gyzy,

Azerbaijan State University Culture and Art,

Email:elfiramelikova@gmail.com

The role of Academician Naila Valikhanli in the formation of professional museum work at MATM

Key words: museum studies, scientific research work, museum archive, professional museum worker

The article provides information about academician Naila Valikhanli's achievement of professional museum work during her twenty-five-year leadership at the National Museum of Azerbaijan History and the foundation of the "museum education" system for newly arrived museum workers to learn museum work. Today, every young person who is recruited to the museum receives an internship and a museum education at the same time.

As we know, museums are not only cultural and educational institutions, but also scientific research centers, so they have the character of institutionalization. For twenty-five years, under the leadership of Academician Naila Velikhanli, the National Museum of Azerbaijan History has been training museum staff, as well as scientific staff. That is why the research conducted in the National Museum of Azerbaijan History differs in its fundamentality. Thus, "...the employees of the National Museum of Azerbaijan History work in the direction of collecting, protecting, researching, publishing material cultural monuments of all periods of Azerbaijan's history, displaying and promoting them through expositions and exhibitions." (Valikhanli, 2020; p. 491).

Introduction. Symposiums, scientific conferences, and scientific seminars are given a special place among the events held in the museum throughout the year. And this information is presented in the form of a report at the end of the scientific collection called "National Museum of Azerbaijan History", which is published every year. The museum activity presented in the scientific collection is a large scientific base and information to be archived. The collection of scientific works published under the title "Azerbaijan History Museum" (now MATM) under the editorship of Academician Naila Velikhanli since 2000 (the first magazine was published in connection with the 80th anniversary of MATM) has made great contributions to Azerbaijani science. The publication of new studies in this collection is the result of great research. And it can be said that most of the museum's funds benefit from valuable materials in the museum archive. Literature references provide fundamental works.

Academician Naila Valikhanli writes in her scientific article dedicated to the 80th anniversary of the Azerbaijan History Museum (in the first edition of 2000): "Understanding the past, actively helping the people's education, promoting its unique ancient history, revealing the stages of its spiritual and political development, historical processes to understand the mutual relationship and the transmission of traditions from generation to generation, to value the changes occurring in the society - the importance of the Azerbaijan History Museum in doing all these things is very great." (Valikhanli; 2000, p. 3).

It is no coincidence that the defense of the first candidate's thesis on museology in Azerbaijan (1999) was held at the National Museum of History, and academician Naila Velikhanli was elected as the chairman of the defense council. N. Valikhanli, who seriously values museum creativity, is the head of the museum, who preserves the historical memory and breaks new ground. Great conditions are created for writing dissertations and conducting research of museologist masters at the National Museum of Azerbaijan History. Employees of relevant departments provide comprehensive assistance to young people who are new to science. This process is the result of professional museum education.

As is known, education is one of the main components of national value. Museum studies is the only science that analyzes and applies museum history, theory, and museum source studies as a whole. From this point of view, those who want to study museum creativity without any boundaries can apply to this science. However, one cannot approach the science of museology without studying the creative history of museums, which are an integral part of the history of the country. Professional understanding of museum activity and museology is at the center of Academician Naila Valikhanli's creativity.